# Azərbaycan turizm sahəsində daha bir beynəlxalq mükafata layiq görülüb

Bu günlərdə Moskvada "National Geographic Traveler" jurnalı tərəfindən təşkil olunan "National Geographic Traveler Awards 2019" müsabiqəsində Azərbaycan İtaliya və Böyük Britaniyanı qabaqlayaraq "Ən yaxşı ekskursiya istiqaməti" nominasiyası üzrə qalib seçilib.

"Nat-geo.ru" saytı vasitəsilə onlayn səsvermə əsasında aparılan müsabiqədə 450 mindən çox insan iştirak edib.

Cari ilin 29 iyunundan 31 oktyabrınadək davam edən səsvermədə ən populyar turizm növləri və ən yaxşı turizm istiqamətləri üzrə 24 nominasiya yer alıb.

Sayca 9-cu dəfə keçirilən müsabiqədə 50-dən artıq ölkənin turizm məhsulları və turizm istiqamətləri səsverməyə çıxarılıb.

Hər il keçirilən "National Geographic Traveler Awards" müsabiqəsi səyahətçilər üçün ən yaxşı istirahət yerlərini müəyyən edir, həmçinin yeni səyahət marşrutlarının yaranmasını stimullaşdırır.

Məlumat üçün bildirək ki, "National Geographic Traveler" jurnalı "National Geographic Partners" korporasiyası tərəfindən Rusiya da daxil olmaqla, dünyanın bir çox ölkəsində dərc olunur və jurnalda səyahət mövzuları üzrə məqalələr dərc olunur.

**Ramiz YUSİFLİ,**
**"Respublika".**

Respublika.-2019.- 3 dekabr.-S.5.